Salam. 20 yaşım var. Öz hislərini belə gözəl şəkildə çatdırdığın üçün və bu məsələnin sülh yolu ilə həll olması tərəfdarı olduğun üçün sənə təşəkkürümü bildirirəm. Dediyin fikirlərlə razıyam.

Sənin valideynlərin kimi mənim də valideynlərim o vaxtkı vəziyyəti mənə izah ediblər. İki xalqın bir–biri ilə dostluq münasibətləri barəsində danışıblar. Anam uşaq olarkən dostlarından bəzilərinin erməni uşaqlarının olması, nənəm və babamın erməni dostları və tanışlarının olması göstərirki iki xalq yaxşı münasibətdə yaşayıb və müharibənin olmasını istəməyiblər.

Ancaq vəziyət elə gətirdi ki, belə bir faciəvi hadisə baş verdi. Bu da xalqın bir–birinə qarşı olan münasibətinə çox ciddi təsir göstərdi. Bir zamanlar yaxşı münasibətdə olan xalq, indi düşmən münasibətindədir.

Müharibənin olmasını heç bir insan istəməz və mən də istəmirəm. Mənim də yaxınlarım müharibə zamanı həlak olublar, xəsarətlər alıblar və bu hadisələr mənə çox pis təsir edir.

Aprel döyüşləri bir daha göstərdi ki, müharibə heç də yaxşı çıxış yolu deyil. Çox sayda insan həlak oldu və həmin insanların ailələri çətin vəziyətdə qaldı.

Çox istəyərdim ki, yerli erməni qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə işğal rejimi bitsin, insanlar bərabər yaşasın yenidən və mən də gedim oraları görüm. Babam Laçın rayonunda doğulub və tez–tez mənə oranın gözəlliklərindən danışır və bu məndə daha da o əraziləri görməyə həvəs yaradır. Çox istərdim ki, valideynlərim öz yaxınlarının məzarlarını ziyarət etsinlər və ata baba yurdlarını görsünlər. Bunlar mənim kimi hər bir Azərbaycanlının arzusudur.

Bu günümüzün necə olmasından asılı olmayaraq, sabahımız sülh olmalıdır. Keçmişdə baş vermiş bu hadisələrə görə biz gənc nəsil qurban olmamalıdır. Mən çox istərdim ki, xalqıma, dövlətimə köməyim dəysin, ancaq xalqa borcu müharibə yolu ilə ödəməməliyik. Biz gənclərdən asılıdır gələcək. Biz öz gücümüzü müharibəyə yox, sülhə, təhsilə, inkişafa sərf etsək, daha xeyirli bir vətəndaş olarıq. Bu məsələnin sülh yolu ilə həll olması üçün əlimizdən gələni eləməliyik.

Hörmətlə

Sülh tərəfdarı